*Dövlət Mükafatına təqdim olunmuş əsərlər*

# “İRƏVAN XANLIĞI... GERÇƏKLİYİN AYDINLIĞI” VƏ “İRƏVAN ZİYALILARI”

Filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun 2016-cı ildə ABŞ-da işıq üzü görmüş “İrəvan ziyalıları” (ingilis dilində) və “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” (Azərbaycan dilində) kitabları qlobal, milli-bəşəri mahiyyət kəsb edir. ABŞ-da nəşr olunmuş bu kitablar dünya azərbaycanlıları üçün nəzərdə tutulmuşdur. Bütün zamanlarda doğma yurd yerlərinə bağlılığın, vətənə məhəbbətin dünyasevərlik anlamında dərk olunmasında belə kitabların dəyəri və əhəmiyyəti misilsizdir.

“İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitabının ilk səhifələrində yaşadığımız dövrdə baş vermiş hadisələrə – işğalçılığa, soyqırımı faciələrinə siyasi qiymət verilməsi baxımından vaxtilə ümummilli lider Heydər Əliyevin “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 18 dekabr 1997 və “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci illərdə imzaladığı mühüm sənədləri təqdim etməsi əsərin mənəvi ruhunu, yaddaş tariximizi güzgü kimi əks etdirir.

Kitaba epiqraf kimi Prezident İlham Əliyevin 31 mart 2010-cu il tarixindəki çıxışında söylədiyi olduqca dəyərli və qətiyyətli fikri də xalqın gerçəkliyə inamının möhkəmlənməsində olduqca böyük əhəmiyyət kəsb edir: “İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır”.

Professor Teymur Əhmədovun kitaba yazdığı “Yurd yanğısından yaranmış kitab” yazısı isə əsərin məqsəd və mahiyyətilə tanışlığa körpü salır. Ön söz statusunda olan yığcam təqdimatda Teymur müəllim xanlığın tarixi ilə bağlı unikal faktlara, sənədlərə istinadən onun əhatə etdiyi mahalları, toponimləri xatırlatmaqla əsrlər boyu soydaşlarımızın yaşadığı faciələri yaddaşımızda közərtmişdir. Müəllifin axtarış əzabları ilə müşayiət olunan zəhmətini, türkçülük mövqeyini nəzərə çatdıran professorun bu fikirləri olduqca maraqlıdır: “Əsgər Zeynalov nədən yazıbsa, onun bütün əsərlərində, hətta dünya ədəbiyyatı ilə bağlı əsərlərində də bir azərbaycanlı, bir türk, bir şərq təəssübkeşliyi güclü surətdə hiss olunur”.

Hər şeydən əvvəl onu qeyd etməliyik ki, bu kitabların əhatə etdiyi ideya və məqsəd, elmi araşdırmalar nəticəsində təkzibolunmaz sənədlərin üzə çıxarılması olduqca böyük əhəmiyyət kəsb edir. Professor Ə.Zeynalov on beş ildən artıq bir vaxtda bir sıra arxivlərdə, kitabxanalarda olmuş, xeyli sayda elm, mədəniyyət, ədəbiyyat adamları ilə görüşmüş, gərgin axtarışların nəticəsində İrəvan xanlığının ərazisində zaman-zaman yetişmiş qol-qanad atmış 180-200 illik nəsilləri üzə çıxarmışdır: İrəvanilər, Mirbağırovlar, Mirbabayevlər, Məhəmmədzadələr, Qazıyevlər, Muğanlinskilər, Bağırbəyovlar, Sultanbəyovlar, Əliyevlər, Əfəndiyevlər, Fərəcovlar, Allahverdiyevlər, Seyidovlar, Axundovlar... nəslinin nümayəndələrinin hər biri ayrılıqda tədqiq olunmuşdur. Bu nəsillərin xanlığın ictimai-siyasi həyatındakı xidmətləri, xeyirxahlıqları, nəcib əməlləri, talelərindən keçən qovğalar müəllifin ciddi axtarışları sayəsində üzə çıxarılmışdır. Müəllif İrəvanın bir çox görkəmli ziyalılarının həyat yolundan, elmin, mədəniyyətin vüsətli inkişafındakı yorulmaz fəaliyyətindən geniş bəhs etmişdir. Əlbəttə, bu məqalələrin hər birində Cabbar Məmmədov, Mustafa bəy Topçubaşov, Heydər Hüseynov, Cəfər Xəndan, Əhməd Cəmil, Kövsər xanım Tarıverdiyeva, Budaq Budaqov, Kamil Əliyev, Məmmədəli Nasir, Kərim Kərimov, Mirəli Seyidov, Səid Rüstəmov, Faiq Bağırzadə, Cabbar Quliyev, Əhliman Əmiraslanov... kimi yüzlərlə İrəvan ziyalılarının, elm-sənət korifeylərinin, tale-həyat yolları araşdırılmışdır. Müəllif bütün mahalların görkəmli şəxsiyyətlərini, maarifpərvər ziyalılarını arayıb-axtarmış, tədqiq etmiş, onların haqqında təsirli, maraqlı yazılar ərsəyə gətirmişdir.

Müəllif XIX əsrin əvvəllərində İrəvan xanlığının mahalları —Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Saadlı, Talin, Seidli-Axsaqlı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə əhalisinin əsrlər boyu əsasən azərbaycanlılardan ibarət olduğunu tarixi sənədlərə istinadən üzə çıxarmış, sonradan bu üstünlüyün çarizmin və Sovet imperiyasının haqsızlığı, ədalətsizliyi ucbatından ermənilərin xeyrinə dəyişdiyini əsaslı şəkildə araşdırmış, bütün yanlışlara, qaranlıqlara aydınlıq gətirmişdir.

Bu əsərlərdə İrəvan xanlığının ata-baba torpaqlarımız olduğunu dünya cəmiyyətinə çatdırmaq istəyi Əsgər müəllimin ümdə məqsədi olmuşdur. Təbii ki, bu niyyətin enişli-yoxuşlu yollarında əziyyətlərə qatlaşması hardan və nədən qaynaqlanıb? Buna ən doğru, səmimi cavabı da elə müəllifin özü verib: “qəlbimdə olan yurd yanğısı 1988-ci il hadisələrindən sonra sürətlə cücərməyə başladı və uzun axtarışların nəticəsi olaraq “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitabı yarandı”. Müəllif milli kimliyimizi, mənsubiyyətimizi yaşadan qədim tikililərdən, ədəbi-bədii abidələrdən, maarif ocaqlarından, görkəmli şəxsiyyətlərin, ziyalıların həyatından, bütövlükdə xanlığın yaşam tarixindən arayıb-axtardığı, üzə çıxardığı qiymətli məlumatları həyəcanla, kövrəkliklə təqdim edir.

Əsgər müəllim qədim yurdumuzun mənzərəsini—Ağrı, Alagöz dağlarını, məhəllələri, bağ-bağatları elə aydın təsvir edir ki, sanki ömrünün sultan çağlarını yaşadığı o yerlərdən canlı reportajlar verir. Uşaqlığından tanıdığı Təpəbaşı, Toxmaxgöl, Şəhər, Qırmızı, Dəmirbulaq, Gedərçay məhəllələri gözlərinin önündən çəkilmir. Hanı, harda qaldı deyib, haray çəkir. Burda o qədər qiymətli faktlar, materiallar var ki, oxuduqca qanın coşur, heyrətə gəlirsən. Onun qiymətli tapıntılarından biri Ermənistan Sovet Ensiklopediyasından iqtibas etdiyi bir fikir əslində erməni işğalçılığını, zorakılığını ifşa edən tutarlı faktdır. Oxuyuruq: “XIV əsrin sonlarından 1828-ci ilə kimi İrəvanı azərbaycanlılar idarə etmişlər...” Və bu fikirdən sonra xanlığı idarə edən xanların adları xronoloji ardıcıllıqla verilmişdir. İrəvanın təsviri məhəllələri, elm-sənət ocaqları, qədim abidələri ilə tipik bir müsəlman şəhəri olması faktların, sənədlərin dili ilə açıqlanır.

Əsgər Zeynalov İrəvan gimnaziyasının yaranması tarixinə nəzər yetirərkən orada dərs demiş ilk müəllimlərdən Molla Tağı Mahmud ağa, (1836-1856), Mirzə Molla Ələkbər Elxanov (1856-1885) və Firudin bəy Köçərlinin (1885-1895) adlarını, fəaliyyət tarixlərini göstərməklə əslində göstərilən dəlillərlə gimnaziyanın 1881-ci ildən də əvvəllər mövcud olduğu faktını ortaya qoyur. Müəllif o dövrü öyrənmək üçün mötəbər mənbə kimi “Kavkazski kalendar”ın müxtəlif illərdəki nəşrlərini də araşdırmış, İrəvan ziyalıları haqqında olduqca qiymətli məlumatları üzə çıxarmışdır. Biz əgər çoxlu sayda sənədlərə əsaslanaraq İrəvanın coğrafi mövqeyini, abidələrini, qədim tikililərini, yaşam tarixini, xanlığın ictimai-siyasi həyatında görkəmli şəxsiyyətlərin misilsiz xidmətlərini özündə ehtiva edən “Közərən ocağın işıqları və ya tarixdə iz qoymuş xanlıq” məqalə-oçerkin üzərində dayansaq, gərək bu mövzuya bir neçə məqalə həsr etmiş olaq. Lakin sonrakı səhifələrdə görkəmli rəssam Mirzə Qədim İrəvanidən başlamış bir çox nəsillər və onların şəcərə budaqlarını müəllif araşdırmalarının izi ilə xatırlamaqla kitabın digər özəlliklərinə də aydınlıq gətirmiş oluruq.




Mirzə Qədim İrəvaninin İrəvan Sərdarının sarayı üçün çəkdiyi rəsm əsərləri və bir çox əl işləri dünyanın bəzi ölkələrinin muzeylərində bu gün də saxlanılır. M.Q.İrəvaninin özündən-kökündən gələn kübarlıq, ziyalılıq rəssamın qol-budağında da özünü göstərmiş, övladlarının, nəvə-nəticələrinin həyatında, fəaliyyətində davam etdirilmişdir. Müəllif iki əsrə yaxın bir dövrdə unudulmuş, izləri itmiş insanların həyatındakı maraqlı, zəngin faktları, mühüm məqamları aydınlaşdıraraq hekayətlər formasında təsvir etməyə müvəffəq olub. Burada yüzlərlə ziyalının tale yolu araşdırılıb. Təbii ki, onların hər birinin də üzərində ayrıca dayanmaq mümkün olmadığından sonrakı səhifələrə nəzər salmağımız da məqsədəuyğundur.

Əsgər müəllimin ən böyük xidməti də xanlığa aid olan böyük bir tarixi sənədlər və maddi dəlillərlə sübuta yetirərək bu qiymətli inciləri gerçəklik adlı xəzinəyə toplaya bilməsidir. Tarix də unutqanlığa yol verməyib. Bütün həqiqətləri öz səhifələrində yaşadıb, hifz edib. Müəllif də bu nəsillərin hər birinin şəcərə tarixlərinin ifadə etdiyi bir çox dəyərli məlumatları aydınlığa çıxarıb. Burda elə böyük nəsillərdən bəhs olunur ki, onların dünyada məşhur olan soyadlarını tanısaq da, çoxlarının xalqa, vətənə geniş miqyasda xidmətlərindən bu kitablar vasitəsilə xəbərdar olmuşuq. Vaxtilə İrəvanın səmasında sayrışan ulduzlartək parlaq zəkalı ziyalıların əksəriyyəti doğulduqları yerlərə məhəbbətini yaşatmaq üçün xanlığın adını özlərinə soyad götürmüşlər. İrəvanskilər, Muğanlinskilər, Bağırbəyovlar, Qazıyevlər, Fərəcovlar, Axundovlar, Əfəndiyevlər, Mirzə Hüseyn ağa, Mirzə Abbas Məmmədzadə (Fars Abbas), Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Heydər Hüseynov, Səid Rüstəmov, Həsən Seyidov, Bağır Seyidzadə, Hüseyn Seyidzadə... kimi güclü nəsillərin, görkəmli şəxsiyyətlərin İrəvanın ictimai-siyasi həyatında, xalqın maariflənməsində, səhiyyənin, mədəniyyətin, inkişafında göstərdikləri misilsiz xidmətləri, gəncliyə örnək olacaq həyat yolları geniş və dolğun şəkildə, həm də böyük məhəbbətlə qələmə alınmışdır. Bu xanlığın şöhrət çələngində tarixiləşən hansı nəslin, soyadın həyatı ilə maraqlansaq onların vətən və xalq yolunda heyrətamiz fəaliyyətlərindən xəbərdar olacağıq. Bu mənada “Köklü nəslin şaxələri”ndən olan görkəmli alim, ictimai xadim Əziz Əliyevin həyat yolu, geniş, əhatəli fəaliyyəti müəllifin böyük axtarışları sayəsində bu böyük şəxsiyyətin həyatından çoxumuzun xəbərsiz olduğu faktları, tale yazısını böyük fədakarlıqla üzə çıxarmışdır. Əziz müəllimin İrəvan gimnaziyasından başlayan ilk təhsil illərinin böyük yola apardığı əziyyətli, həm də məhsuldar ömrü heç bir məqamı unudulmayan dəqiqlik, həssaslıqla izlənilmişdir. Burda müəllif onun haqqında dünya şöhrətli cərrah Mustafa bəy Topçubaşov, ədəbiyyatşünas alim Əziz Şərifin və başqalarının xatirələrinə də işıq salmışdır.

Xanlığın ad izləri (“Pənah xan körpüsü”, “Pənah xan bulvarı...”), adla deyilən bağları (“Dərə bağları”, “Dəlmə bağları”, “Güllü bağ”, “Yoncalı bağ”, “Sərdar bağı...”), mahalları (Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Sərdarabad, Körpübasar...) xalqına xidmət edən pansionat, progimnaziya, gimnaziyalar, İrəvanın xanları, bəyləri, neçə-neçə İrəvanskilər, onların nəsil-nəcabəti, qol-budaqları, yurdun tarixi, yaşam həyatı ilə bağlı əməlləri pozulmayan bir yazıdır. Tarixin yaddaşında, bu günədək yaşayan abidələrimizdə, səyyahların qeydlərində günü-gündən artan, çoxalan şəcərə ağacının budaqlarında yaşayır bu tarix...

Bu gün təkcə İrəvan xanlığında olan mahalların adlarını dilimizə gətirəndə qəribə bir titrəyiş sarır bizi, kövrəlir, təsirlənirik...

Burda kitabın rəyçisi, AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovun bir fikrini xatırlamaya bilmirəm: “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitabında elə ziyalılara təsadüf olunur ki, onların böyüklüyünə professor Əsgər Zeynalovun zəhməti, gərgin axtarışlarının vasitəsilə tanış olursan. Belə şəxslərin elmi, ədəbi ictimaiyyət arasında lazımi səviyyədə tanınmaması ancaq təəssüf hissi doğurur”.

Əsgər müəllim əzablı yollardan keçərək damla-damla topladığı sənədləri, faktları araşdırıb-oxuduqca itkilərin, faciələrin, soyqırımların baş verdiyi tarixi məqamları ürək ağrısı ilə qələmə alıb. O, doğulduğu torpağının vətən daşı olmaq üçün, onun tarixini, ziyalılarının həyat salnamələrini yaşatmaqdan ötrü daha hansı əziyyətlərə qatlaşmayıb ki!

Bu mənada Əsgər Zeynalov Qərbi Azərbaycan torpaqlarında yaşadığımız çoxəsrlik tariximizi dünyanın bir çox ölkələrinə apara bilib. Müəllifin “İrəvan ziyalıları” Sankt-Peterburqda B.A.Starkovun ön sözü ilə nəşr olunmuşdur. Burda B.A.Starkov bizim üçün, elə böyük qurumlar və təşkilatlar üçün də maraqlı olan bir faktın —müəllifin məhz erməni mənbələrinə əsaslanaraq aşkar etdiyi istinadların üzərində dayanır. Bu da əvvəldə qeyd etdiyimiz kimi, XIV əsrdən başlamış, XIX əsrin sonuna, həmçinin 1920-ci illərdə İrəvanın Azərbaycan şəhəri olmasına diqqət yetirməsidir. Eləcə də kitabın Moskva nəşri haqqında özünün təəssüratlarını qələmə alan Rusiyanın bir çox titullarının sahibi, Rudolf İvanov əsər haqqında daha ətraflı bəhs etmiş, onu yüksək qiymətləndirmişdir. Bu gün “İrəvan ziyalıları” və “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitablarının ABŞ kimi bir ölkədə nəşr olunmasının özü böyük bir hadisədir. Bu tanıtma-təqdimin içərisində müəllifin ən ümdə xatırlatması sanki ruhumuzu dara çəkir: əziz soydaşlarımız, unutmayın ki, İrəvan sizin dədə-baba torpaqlarınız, o xanlar, ziyalılar, müdrik insanlar sizin babalarınız, kökünüz-köməcinizdir...

Yazının bu məqamında dəyərli kitabların müəllifini bir qədər yaxından təqdim etmək, zənnimizcə, doğru olar. Filologiya elmləri doktoru, professor Əsgər Zeynalov Azərbaycan ədəbiyyatşünaslığının beynəlxalq (dünya) miqyasında tanınmış nümayəndələrindən biridir. O, ölkəmizi bir sıra beynəlxalq konfrans, qurultay və tədbirlərdə (İrəvan (2001), Almaniya (2007), Fransa (2007-2014), Türkiyə (2009) layiqincə təmsil etmişdir. Xeyli sayda məqalələri Rusiya, İran, Türkiyədə, bir neçə kitabları, o cümlədən “İrəvan ziyalıları” kitabı Sankt-Peterburqda (2011), Moskvada (2013) rus dilində, ABŞ-da (2016) ingilis dilində, “Hüqo —fransız ədəbiyyatının milyarderi” (2015) fransız dilində Fransada, “Hüqo” ingilis dilində, Almaniyada (2016) “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” ABŞ-da (2016) Azərbaycan dilində işıq üzü görmüşdür. Azərbaycanlı alimin əsərlərinə dünya şöhrətli rus və fransız alimləri Boris Starkov, Rudof İvanov, Jan Lui Bakke Qrammon, Arno Laster ön söz yazmış, onun yaradıcılığını yüksək qiymətləndirmişlər. 2007 və 2014-cü illərdə Fransanın ən nüfuzlu orqanlarından biri olan “LEST Republicain” qəzetində və 2013-cü ildə isə Parisdə fəaliyyət göstərən “Viktor Hüqonun Dostları Cəmiyyəti”nin məcmuəsində professor Əsgər Zeynalov haqqında məqalələr dərc olunmuşdur. Onu da xatırladaq ki, sonuncu məqalənin müəllifi Hüqonun bütün dünyada məşhur olan fransız mütəxəssisi “Hüqo” cəmiyyətinin prezidenti Arno Lasterdir.

2016-cı il üçün Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim olunmuş əsərlərin içərisində filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun Amerika Birləşmiş Ştatlarının Şimali Korelina Ştatının Raleigh şəhərinin “Lulu” nəşriyyatında işıq üzü görmüş “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” və “İrəvan ziyalıları” kitablarının da təqdim olunması bu baxımdan təsadüfi deyildir. Bizcə, bu kitablar Azərbaycan Respublikasının Dövlət Mükafatına indiyədək təqdim olunmuş xaricdə nəşr edilən ilk əsərlərdir. Biz də o fikirdəyik ki, Azərbaycan ədəbiyyatşünaslığına, eləcə də Azərbaycan-Fransa ədəbi əlaqələrinin inkişafına uzun illər xidmət etmiş professor Əsgər Zeynalovun indiyədək işıq üzü görmüş 30-dan çox kitabları sırasında tarixi, ədəbi-mədəni abidələrimizi, mənəvi dəyərlərimizi yaşatdığı “İrəvan ziyalıları” və “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitablarını müəllifin şah əsərləri hesab etmək doğru olar.

Bu gün sülhməramlı danışıqlar aparmaqla, ölkələr arasında münasibəti tənzimləməyi, normal şəkildə inkişaf etdirməyi bəyan edən, zorakılığa, işğalçılığa kağız üzərində yox deyən nüfuzlu təşkilatlar, qurumlar oyunlar quraraq baş aldadırlar. Əsgər Zeynalovun haqqında bəhs etdiyimiz hər iki kitabı bütün aydınlığı, sözünün gerçəkliyi ilə dünyaya səslənərək onları ədalətli olmağa çağırır. Bu mənada adı çəkilən kitablar milli-bəşəri ideyaları ifadə etdiyi üçün Dövlət Mükafatına layiqdir.

Böyük yolun yolçusu olan bu ziyalıların, görkəmli şəxsiyyətlərin həyat tarixçələrini oxuduqca heyrətlənməyə bilmirsən: gör bir İrəvan xanlığı necə böyük insanlar yetişdirib! Xanlığın halalca övladları olduğumuz halda görün, kimləri və nələri itirmişik! Bu gün həyasızcasına özlərinin işğalçılıq əməllərindən əl çəkməyən, talana, qırğına həris olan daşnak xislətli ermənilərə yəqin ki, tarix aman verməyəcək. Bu tarixin pozulmayan yazısı-yaddaşı hər zaman həqiqəti gün işığı tək aydın əks etdirəcəkdir. Professor Əsgər Zeynalovun haqqında bəhs etdiyimiz “İrəvan ziyalıları” və “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” elmi-publisistik kitabları da məhz bu ideya və məqsədi ifadə edir. Bu kitab çoxlarının da ifadə etdiyi kimi, İrəvanın sözdən ucaldılmış tarixi, ədəbi-mədəni abidəsidir.

**Şəfəq NASİR,**
**filologiya üzrə fəlsəfə doktoru.**